HAKİMİYYƏTİN MƏNBƏYİ XALQDIR

www.hakimiyyet.info.az



HAKİMİYYƏT

İctimai-siyasi həftəlik qəzet | № 18 (281) | 15 iyul 2023-cü il | Qəzet 1994-cü ildən çıxır | Qiyməti 60 qəpik

PREZİDENT İLHAM ƏLİYEV İSRAİLİN MÜDAFİƏ NAZİRİNİ QƏBUL EDİB

Hakimiyyet.info.az xəbər verir ki, iyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsrail Dövlətinin müdafiə naziri Yoav Qallantı qəbul edib.

Yoav Qallant İsrailin Baş naziri Benyamin Netanyahunun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İsrailin Baş nazirinə çatdırmağı xahiş etdi.

Söhbət zamanı dövlətimizin başçısı ilə İsrailin müdafiə naziri arasında bu il Münxendə keçirilən görüş xatırlandı.

İkitərəfli münasibətlərin inkişafından, o cümlədən hərbi-texniki sahədə əməkdaşlıqdan məmnunluq ifadə edildi. İsrail Prezidenti İsxak Hersoqun Azərbaycana səfərinin əlaqələrimizin inkişafında rolu qeyd olundu.

Görüşdə Azərbaycanın İsraildə səfirliyinin açılmasının əməkdaşlığın genişləndirilməsi baxımından önəmi vurğulandı.

AZƏRBAYCAN ORDUSUNUN MÖVQELƏRİ ATƏŞƏ TUTULUB

İyulun 14-ü saat 10:55 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Ordumuzun Şuşa və Xocalı rayonları istiqamətlərində yerləşən mövqeləri atıcı silahlardan atəşə tutulub.

Bundan başqa saat 13:39-dan 13:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətlərdə cavab tədbirləri görülüb.

MEDİA SAVADLILIĞININ ARTIRILMASI İLƏ BAĞLI GÖRÜŞ KEÇİRİLİB

Elm və Təhsil Nazirliyi ilə Medianın İnkişafı Agentliyi arasında media savadlılığının artırılmasına dair görüş keçirilib.

Hakimiyyet.info.az xəbər verir ki, görüşdə çıxış edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli hər iki qurum arasında əməkdaşlıq çərçivəsində görülən işləri təqdir edib. Mətin Kərimli gələcəkdə bu əməkdaşlığın daha da genişləndiriləcəyinə əminliyini bildirib.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov öz növbəsində media savadlılığının artırılması ilə bağlı həyata keçirilən dövlət proqramları, bu sahənin mövcud vəziyyətindən bəhs edib və kütləvi informasiyanın istehlakçı tərəfindən təhlilinin vacibliyini vurğulayıb.

Görüş çərçivəsində media savadlılığının əhəmiyyəti, ali və ümumtəhsil məktəblərində tədris proqramı çərçivəsində mənimsənilməsi, beynəlxalq təcrübə və fəaliyyət planı müzakirə olunub. Bununla yanaşı, qurumlararası əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Görüşdə media savadlılığı ilə bağlı təqdimat da nümayiş olunub.

PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİNİ QƏBUL EDİB

İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşu qəbul edib.

Numan Kurtulmuş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Türkiyədə keçirilmiş prezident və parlament seçkilərində qələbə münasibətilə bir daha təbriklərini çatdırdı.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası sahədə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı. Numan Kurtulmuşun səfərinin əlaqələrimizin inkişafına töhfə verəcəyi qeyd olundu.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının daha da gücləndirilməsinin, bu təşkilat və TÜRKPA formatında əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyi vurğulandı.

KONSTİTUSİYA MƏHKƏMƏSİNİN YARADILMASININ 25 İLLİYİ MÜNASİBƏTİLƏ BİR QRUP ŞƏXS TƏLTİF EDİLDİ

Hakimiyyet.info.az xəbər verir ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılmasının 25 illiyi münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən məhkəmə orqanlarında və dövlət qulluğunda səmərəli fəaliyyət göstərdiklərinə görə aşağıdakı şəxslər-

2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə
Salmanova Sona Sadıx qızı
Qvaladze Rafael Sergeyeviç
Quliyev Rauf Rəhim oğlu;
3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə
Qaracayev Ceyhun Yasinəli oğlu
Şəfiyev Kamran Rauf oğlu;
"Tərəqqi" medalı ilə
Babayev Anar Şahlar oğlu
Cəfərov Anar Əli oğlu
İbrahimov Sarıbəy Davud oğlu
Məmmədova Dürdanə Mirzə qızı;
"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə
Quliyev Zaur Ağayar oğlu
Məmmədov Əsgər Allahverdi oğlu təltif ediliblər.

ZİYALILIQ, ŞƏXSİ AMBİSİYALAR, YOXSA İNTRİQABAZLIQ?!

Cəmiyyətdə ziyalı və onun mövqeyi ilə bağlı həmişə müzakirələr gedib. Bu təbəqə hər bir dövrdə aparıcı, sağlam əqidəli, geniş dünyagörüşlü insanlar olub. Müxtəlif yanaşmalar olsa belə, ziyalı, xüsusən də elm adamları bu adı qorumağa çalışıb.

Ziyalı təbəqəsi intriqalara, qalmaqala yol açanda cəmiyyətdə nadanlar vüsət almağa başlayır. Əfsuslar olsun ki, sosial şəbəkələrdə gedən qalmaqallı mövzulara bəzi ziyalılarımız da böyük önəm verir. Xüsusən də elm adamının belə intriqalarda fəallığı onun elmə münasibətini şübhə altına salır. Bəzi ziyalılar onlara diqqətin azalmasından, bəziləri isə ziyalılara münasibətin dəyişməsindən, bəziləri də şəxsi ambisiyaların qurbanına çevrilməsindən şikayətlənirlər. Ziyalıların cəmiyyətdən və dövlətdən gözləntiləri ilə bağlı da müxtəlif fikirlər var. Normal cəmiyyətlər ziyalı düşüncəsi ilə formalaşır. Əlbəttə, həqiqi, vətənpərvər ziyalıların.

Bir neçə gündür feysbuk sosial şəbəkəsində diqqətimi çəkən əsas maraqlı mövzulardan biri də, filologiya üzrə elmlər doktoru, professor Həbib Zərbəliyevin ölkənin tanınmış ali təhsil ocaqlarından olan Azərbaycan Dillər Univeristetinə, onun rəhbər heyətinə, xüsusən də həmin təhsil ocağının rektoru Kamal Abdullaya qarşı yazılarıdır. Maraqlıdır, görəsən Həbib müəllimi buna məcbur edən nədir, və ya kimlərdir?

Feysbuk səhifəsində özünün paylaşdığı RƏY-dən görünür ki, 2006-cı ildən Azərbaycan Dillər Univeristetinin Ümumi dilçilik kafedrasının əməkdaşıdır. 2006-2010-cu illərdə o, Ümumi dilçilik kafedrasının tam ştat professoru vəzifəsini tutmuş, 2010-cu ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyində şöbə müdiri vəzifəsində fəaliyyətə başlaması ilə əlaqədar olaraq 0,5 ştat professor vəzifəsinə keçirilmiş, 2014-cü ildən müqavilə əsasında yenidən kafedranın tam ştat professoru vəsifəsinə qəbul edilmişdir. 2017-ci ilin sentyabrından Elmi tədqiqatlar və nəşrlər şöbəsinin müdiri təyin edilməsi ilə əlaqədar yenidən kafedranın 0,5 ştat professoru vəzifəsinə keçirilmişdir. 2019-cu ildən Ümumi dilçilik kafedrasının tam ştat professoru vəzifəsini tutur.

Bəs uzun illər çalışdığı, münasibətdə olduğu kollektivə qarşı belə münasibət nədən və haradan yaranıb Həbib müəllimdə? Yenə qayıdırıq özünün paylaşdığı bir yazıya: Bu günlərdə Azərbaycan Dillər Universitetində (ADU) yaxşı tanıdığım bir xanım "Həbib Zərbəliyev özünü gör nə vəziyyətə çatdırıb ki, Universitetdə heç kim onun səsinə səs vermir" deyib. Bunu bir başqası deməydi, mənə o qədər təsir etməzdi. Həmin xanıma bunları demək istərdim: "Mənim heç kimin səsinə ehtiyacım yoxdur. Yazılarımı bəyənənlərə dərhal zəng vurub onu geri götürməsinə, mənə yanaşıb dəstək bildirənlərə isə dərhal məndən uzaq durmasını tövsiyə edirəm. Mən Kamal Abdullayevin nə qədər qisasçı olduğunu yaxşı bilirəm və mənə görə kiminsə onun "siyahı"sına düşməsini istəmirəm. Mən özüm bir nəfərdən ibarət orduyam. Sizin fikriniz mənim üçün ölçü vahidi deyil, xanım. Öz işinizlə məşğul olun". Ziyalıda, elm adamında belə təkəbbür, özünəgüvənmə, digər ziyalı həmkarına qarşı aqressiya Həbib müəllimdə haradan yaranıb? Həbib müəllim qeyd edir ki, "gMənim heç kimin səsinə ehtiyacım yoxdur. Yazılarımı bəyənənlərə dərhal zəng vurub onu geri götürməsinə, mənə yanaşıb dəstək bildirənlərə isə dərhal məndən uzaq durmasını tövsiyə edirəm..." Bəs elədirsə, sizin ünvana xaımın söylədikləri fikrə niyə belə hücuma keçib özünüzü Napoleon Bonapart kimi müdafiə edirsiniz? Hələ bu azmış kimi daha da irəli gedib termosundan çay içdiyiniz, hamının yaxşı tanıdığı (Əlbəttə, bunu özünüz də təsdiq edirsiniz-F.Ə.) "gProfessor Şahin Xəlillini iyirmi ilə yaxındır ki, tanıyıram. Necə deyərlər, tikansız balıq hesab edirdim. Doğrudan da, o bir neçə universitetdə çalışaraq, bir parça çörəyini qazanırdı, düz adam idi - ta Kamal Abdullayev onu dekan vəzifəsinə gətirənə qədər. Hətta Elmi şurada Şahin Xəlillinin seçkisi zamanı mən çıxış edərək, onun haqqında çox müsbət rəy bildirmişdim. O da rəhbərlik etdiyi fakültənin Elmi şurasının sizə məlum olan məşhur iclasında mənə bunun "müqabilini verdi". Sağ olsun!!! Düzü, indi mənim içimdə iki Şahin müəllim - yaxşı və dönük Şahin müəllim arasında seçim tərəddüdü var. Yaxşını seçim, necə seçim, dönük Şahin müəllimi seçim, necə seçim? Üstəlik də, ehtiyat edirəm ki, səhvə yol versəm, onun termosundan içdiyim iki stəkan çay mənə haram olar. O biri tərəfdən düşünürəm ki, əvvəllər ideal sandığım, indi isə vəzifə naminə həqiqəti tapdayan bu Şahin müəllimə mən necə haqq qazandırım. Birdən elə bilərsiniz ki, Şahin müəllimin tutduğu dekan vəzifəsindən bir qazancı var, əsla. O, el dili ilə desək, papağını gündə yandırır, faydasını isə "yuxarılar" görür. Ona görə hesab edirəm ki, düşdüyü vəziyyət Şahin müəllimin faciəsidir."



Buradan açıqca görünür ki, dərdiniz başqadır, kimlərinsə marağına xidmət etməklə tanınmış ziyalını, akademiki, filologiya sahəsində kifayət qədər xidmətləri olan bir təhsil ocağının rektorunu, yazıçı Kamal Abdullanı hörmətdən salmaqla yanaşı ona dəstək verən kollektivi, təhsil ocağını da nüfuzdan salmağa çalışırsınız. Bu sizin yazılarınıza verilən şərhlərdən də aydın sezilir. Necə deyərlər, gündəmə gəlmək üçün ziyalı kimi yox, bəzi müğənni və prodüsserlər kimi sosial şəbəkədə məşhurlaşmaq istəyirsiniz.

Yazılarınıza verilən şərhlərdən görünür ki, bir zamanlar "narxoz"da -İqtisad Universitetində işləyərkən də rektorla belə konfliktlər yaşamış, Elmi Şura ilə problemləriniz olub. Bildiyimə görə Təhsil Nazirliyində də, bu keyfiyyətlərinə görə sənin oradanan uzaqlaşmanı sevinclə qarşılayıblar. Bax bu ziyalının, elm adamının adına yaraşan deyil. Yəqin ki, mənim yazıma da reaksiyanız olacaq. Kamal Abdullanın sifarişidir, özünü məndən qorumağa mətbuat nümayəndələrini ələ alıb, nə bilim daha nələr. Bu sizin öz vicdanınızın işidir. Amma mən sizi araşdırıb ətrafdakılarınızın diliylə əsl ambisiyalara malik olmağınızı, kimlərinsə sifarişi ilə intriqalarda məşhurlaşan Həbib Zərbəliyev kimi tanıdım.

Füzuli Əfqanoğlu,
"HAKİMİYYƏT" qəzetinin Baş redaktoru,
AJB üzvü